UOT 94(479.24)

MİNARƏ AĞAMALIYEVA
AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun
"Azərbaycanın beynəlxalq əlaqələr tarixi" şöbəsinin elmi işçisi
TarixVeOnunProblemleri@gmail.com

QƏRBİ AZƏRBAYCANLILARLA BAĞLI HƏQİQƏTLƏR AZƏRBAYCAN DİASPORUNUN FƏALİYYƏTİNDƏ

DOI: https://doi.org/10.36719/2708-065X/111/218-224

Azərbaycan Respublikası beynəlxalq aləmin tərkib hissəsi olduğuna görə, diaspor amili dövlətçiliyimizin inkişafı və Azərbaycanın dünyadakı nüfuzunun artması, Qərbi Azərbaycan həqiqətlərinin öyrənilməsi, dünya ictimaiyyətinə çatdırılması, erməni saxtakarlıqlarının ifşası istiqamətində mühüm əhəmiyyətə malikdir. Məqalədə Qərbi Azərbaycan tarixinin, mədəniyyətinin və həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılmasında Azərbaycan diasporunun fəaliyyəti araşdırılıb.

Açar sözlər: Qərbi Azərbaycan, deportasiya, soyqırımı, Azərbaycan diasporu.

Giriş. Son iki yüzillikdə xalqımıza qarşı erməni millətçiləri tərəfindən məqsədyönlü şəkildə həyata keçirilən etnik təmizləmə, soyqırım və təcavüzkarlıq siyasəti Azərbaycan tarixinin faciələrlə dolu mərhələlərini təşkil edir. Bu baxımdan bu mərhələlərin öyrənilməsi, tarixən soydaşlarımızın Qərbi Azərbaycanda yaşaması, zaman-zaman onların necə deportasiya olunması, soyqırıma məruz qalması, mədəniyyət abidələrinin məhv edilməsi kimi həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında Azərbaycan diasporunun fəaliyyətinin araşdırılması aktual mövzulardandır.

Şimali Azərbaycan ərazisi Rusiya imperiyası tərəfindən işğal olunduqdan sonra rus çarının xüsusi himayəsi altında Azərbaycanın qərb ərazilərinə İrandan və Türkiyədən ermənilərin kütləvi şəkildə köçürülməsinə başlandı. Çar Rusiyasının müstəmləkəçilik siyasətinin tərkib hissəsi olan köçürülmə prosesi bütün XIX əsr boyunca davam etdirilmiş, nəticədə regionda demoqrafik vəziyyətə təsir göstərmişdir. Rus çarının xüsusi himayəsi altında ermənilər az zaman içərisində yerli azərbaycanlıları silah və zor gücünə qaçqına çevirdilər. Yerli əhalinin bir hissəsi İran və Türkiyə ərazisinə, bir hissəsi isə Azərbaycanın mərkəzi ərazilərinə köçməyə məcbur oldu. Qafqazda öz mövqelərini möhkəmləndirdikdən sonra erməni millətçiləri 1887-ci ildə "Qncak", 1890-cı ildə isə "Daşnaksütyun" terrorçu partiyalarını yaradaraq əzəli Azərbaycan torpaqlarına iddialarını, etnik təmizləmə planlarını daha da genişləndirmiş və sistemli surətdə davam etdirmişlər (6, 219).

Çar Rusiyası tərəfindən rəsmi olaraq dəstəklənən bu siyasət ermənilərin daha da azğınlaşmasına, azərbaycanlıların XX əsrin əvvəllərində kütləvi şəkildə doğma torpaqlarından qovulmasına, onlara qarşı genosid və soyqırım siyasəti yeridilməsinə gətirib çıxartdı. Dövrün statistik məlumatlarına istinadən qeyd etmək lazımdır ki, erməni millətçiləri XIX əsrin sonlarında, 1905-1907, 1918-1920, 1947-1954, 1988-1992-ci illərdə azərbaycanlılara qarşı etnik təmizləmə və digər cinayətlər törətmişlər. "Ermənistan" adlanan Qərbi Azərbaycan torpaqlarından azərbaycanlıların zorla çıxarılması ilə paralel olaraq onlara məxsus olan tarixi abidələr, qədim tikililər, müsəlman memarlığını özündə əks etdirən bütün tikililər, o cümlədən məscidlər, xatirə abidələri, epiqrafik abidələr, epitafiyalar erməni vandalizminin qurbanı olmuşdur (7, 96). Göründüyü kimi, Ermənistan Respublikasının azərbaycanlıların öz el-obasından didərgin salması, onların tarixi irsinin məhv edilməsi beynəlxalq aləmdə qəbul edilmiş insan və vətəndaş hüquqları ilə bağlı qərarların kobudcasına pozulmasının əsas göstəricisidir.

Erməni millətçilərinin azərbaycanlılara qarşı soyqırımı cinayətləri cəzasız qaldığına, bu cinayətlərə heç bir siyasi-hüquqi qiymət verilmədiyinə görə sovet hakimiyyəti dövründə də azərbaycanlılar barəsində düşmənçilik siyasəti davam etdirilmişdir.

1920-ci ildən Ermənistanda Sovet hakimiyyətinin qurulması ilə qırğınlar dayansa da, azərbaycanlıların deportasiyası və onlara məxsus mədəniyyət abidələrinin məhv edilməsi prosesi dayanmadı.

1936-cı ildə Ermənistan SSR Ali Sovetinin qərarı ilə respublika ərazisindəki azərbaycanlı yaşayış məntəqələrinin coğrafi ərazilərin adlarının kütləvi surətdə ermənileşməsinə başlandı. İrəvan şəhərinin adı da erməni dilinə uyğunlaşdırılaraq Yerevan adlandırıldı (17, 5).

Erməni millətçiləri nə olursa-olsun, Ermənistanda etnik ermənilərin say üstünlüyünü artırmaq məqsədilə SSRİ hüdudlarından kənarda yaşayan ermənilərin köçürülməsi məsələsini daim diqqət mərkəzində saxlamışlar. SSRİ rəhbəri İ.V.Stalinin bu məsələdə ermənilərə dəstək verməsi ermənilərin əl-qolunu daha da açmışdır. II dünya müharibəsindən sonra 22 fevral 1946-cı ildə Sov.İKP.MK-nın siyasi Bürosu SSRİ Xalq Komissarları Sovetinin hazırladığı "Ermənilərin xaricdən Sovet Ermənistanına köçürülməsinin praktiki tədbirləri haqqında" qərar təsdiq edilmiş, ermənilərin xaricdən Ermənistana axınına start verilmişdi (9, 21). 1946-48-ci illərdə dünyanın müxtəlif ölkələrindən 100.000 nəfər erməni qəbul edilib Ermənistanda yerləşdirildi (6, s.220).

Xaricdən köçürülən ermənilərin yerləşdirilməsində çətinliklər olduğunu bəhanə edən Ermənistan hökuməti bu respublikada yaşayan azərbaycanlı əhalinin Azərbaycan SSR-ə köçürülməsi təklifi ilə İ.Stalinə müraciət etdi. SSRİ Nazirlər Sovetinin 1947-ci il dekabrın 23-də qəbul etdiyi 4083 nömrəli qərarına əsasən 1948-53-cü illərdə 144, 654 nəfər azərbaycanlı zorla Ermənistandan köçürüldü (15). Beləliklə, azərbaycanlıların Ermənistan SSR ərazisindəki öz dədə-baba torpaqlarından məcburi şəkildə qovulmasının növbəti üçüncü mərhələsi başlandı. Xatırladaq ki, birinci mərhələ 1905-1906, ikinci mərhələ isə 1920-1930-cu illərdə olmuşdur.

Sovet rejimi şəraitində soydaşlarımızın deportasiyası adi bir dəyişiklik hesab olunmuşdur. 1950-ci il yanvarın 10-da Azərbaycan SSR Nazirlər Soveti və Azərbaycan K (b) P Mərkəzi komitəsi "Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığı rayonlarına köçürülmüş kolxozçuların və digər azərbaycanlı əhalinin təsərrüfat cəhətcə yerləşdirilməsi ilə əlaqədar təxirəsalınmaz tədbirlər haqqında" qərar qəbul edir. Həmin qərarda göstərilirdi ki, 1948-1949-cu illərdə Ermənistan SSR-dən 4674 təsərrüfat (təqribən 20.000 nəfər) köçürülmüşdür (16). Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları XX əsr boyunca davam etmişdir.

1988-ci ildə ermənilər tərəfindən gerçəkləşdirilən qanlı kampaniya özünün növbəti mərhələsinə yenidən qədəm qoydu. 1988-ci ildə Qərbi Azərbaycandan 250 minə yaxın soydaşımız öz tarixi torpaqlarından qaçqın düşdü. Belə ki, bu deportasiya zamanı 300-ə yaxın yaşayış məntəqəsindən 50 mindən artıq ailədən 300 minə yaxın soydaşımız zorla qovulub, 200 nəfərdən çox soydaşımız ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirilmişdir (2, 187).

Bu hadisələrə ilk dəfə olaraq ümumilli lider H.Əliyev 1997-ci il dekabrın 18-də "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" fərmanı ilə siyasi qiymət verdi. Həmin fərmanda göstərilmişdi: "Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən – min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə, yaşayış məskəni dağıdılıb viran edilmişdir" (15).

Bu fərman xalqımızın çoxdankı istəyini ifadə edən tarixi, siyasi və hüquqi sənəd oldu. Həmçinin həmin sənəd soydaşlarımıza qarşı soyqırımı və deportasiya siyasətinin mürtəce mahiyyətinin dünya ictimaiyyətinə çatdırılması baxımından çox böyük əhəmiyyətə malik idi.

Ümumilli lider daha sonra 1998-ci il martın 26-da "Azərbaycanlıların soyqırımı" və 2001-ci il avqustun 22-də "Erməni millətçilərinin apardığı etnik təmizləmə nəticəsində Ermənistan ərazisindəki öz tarixi torpaqlarından didərgin salınmış azərbaycanlıların məskunlaşması problemlərinin həlli haqqında" fərmanlar imzalamışdır (8, 61-63). Bu tarixlərdən başlayaraq hadisələrin elmi təhlili və obyektiv siyasi münasibətlərin formalaşdırılması təmin edilmişdir.

Bu gün Azərbaycan xalqının həyatında baş vermiş bu tarixi faciələrimiz, Qərbi Azərbaycanın tarixinin, mədəniyyətinin və həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılmasında Azərbaycan diasporunun rolu böyükdür. Qərbi Azərbaycanda soydaşlarımızın yaşaması, orada çoxsaylı mədəniyyət abidələrimizin olması ilə bağlı mənbələr var. Həmin mənbələrə istinad etməklə, zaman-zaman onla-

rın necə deportasiya olunması, soyqırıma məruz qalması, mədəniyyət abidələrinin məhv edilməsi diaspor təşkilatları tərəfindən dünyaya çatdırılmalıdır.

Bu baxımdan 2022-ci il dekabrın 24-də Prezident İlham Əliyevin Qərbi Azərbaycan icmasının üzvləri ilə görüşü mühüm əhəmiyyət kəsb edir. Xatırladaq ki, Qərbi Azərbaycan icması 1989-cu ildən fəaliyyət göstərən "Azərbaycan Qaçqınlar Cəmiyyəti" İctimai Birliyinin əsasında 2022-ci il avqustun 3-də yaradılmışdır (10).

Görüşdə səslənən fikirlər, açıqlanan hədəflər Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması aspektindən vacib şərt kimi qəbul edilmişdir. Prezident İlham Əliyevin proqram xarakterli çıxışı ölkəmizin tarixi torpaqları, keçmişi, ötən yüzillikdə məruz qaldığımız etnik təmizləmə və deportasiya siyasətinin ifşası, Qərbi Azərbaycanda ermənilər tərəfindən dağıdılmış milli-mədəni sərvətlərimiz baxımından geniş məzmunlu idi. Prezident çıxışında qeyd etmişdir ki, İcma bir neçə istiqamət üzrə öz işini davam etdirməlidir. Əlbəttə ki, ölkə daxilində bu icmanın fəaliyyəti daha da gözəgörünən olmalıdır. Bununla bərabər hesab edirəm ki, icmanın bundan az əhəmiyyət kəsb etməyən beynəlxalq müstəvidə fəaliyyəti olmalıdır. Çünki biz bu həqiqətləri dünya ictimaiyyətinin diqqətinə çatdırmalıyıq, necə ki, Qarabağ həqiqətlərini çatdırmışdıq. Faktiki olaraq biz 1990-cı illərin əvvəllərində Qarabağ münaqişəsi ilə bağlı təhrif edilmiş təsəvvürü tamamilə dəyişdirə bildik. İnformasiya müharibəsi və İkinci Qarabağ müharibəsi onu göstərdi ki, bu, az əhəmiyyət kəsb etmir. Ona görə burada da icmanın xaricdəki fəaliyyəti xüsusi önəm daşımalıdır. Sərgilər, təqdimatlar, beynəlxalq konfranslar keçirilməlidir. Azərbaycan diaspor təşkilatları ilə birlikdə aksiyalar keçirilməlidir. Bizim bir çox ölkələrdə diaspor təşkilatlarımız var. Xarici ölkələrin siyasi dairələri, mətbuat və qanunvericilik orqanları ilə təmaslar qurulmalıdır" (11).

Prezident İlham Əliyevin çıxışı Qərbi Azərbaycan İcmasının fəaliyyət istiqamətlərini müəyyən etdi. Bu baxımdan Qərbi Azərbaycan İcmasının xarici ölkələrdə fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatları ilə görüşlərini misal göstərmək yerinə düşər. 2024-cü il avqustun 21-də Benilüks Azərbaycanlıları Konqresinin üzvləri ilə Qərbi Azərbaycan İcmasının rəhbərliyinin görüşü Bakıda keçirildi. Görüşdə Qərbi Azərbaycan İcması ilə Benilüks Azərbaycanlıları Konqresinin əməkdaşlığı, bu əməkdaşlığın və gələcək planların perspektivləri müzakirə olunub (4).

Görüşdə son 100 ildə soydaşlarımızın Ermənistan ərazisindən deportasiya edilməsi və toponimlərin ermənileşməsi kimi mövzular müzakirə edilib, bu mövzularla bağlı yeni faktlar nəzərdən keçirilib. Soydaşlarımızın doğma yurdundan – Qərbi Azərbaycandan deportasiyası ilə bağlı məlumatların Avropa İctimaiyyətinə çatdırılmasının vacibliyi vurğulanıb. Sovet İttifaqı dövründə bu hadisələrin gizlədildiyi pislənib. Görüş iştirakçıları bu məsələnin ictimailəşməsinin vacibliyini diqqətə çatdırıblar.

Qərbi Azərbaycanlılarla bağlı həqiqətlər xarici ölkələrdə fəaliyyət göstərən Gənclər təşkilatlarının fəaliyyətində də əsas mövzulardan olmuşdur. Belə ki, 2024-cü il avqustun 6-da keçirilən Diaspor Gənclərinin V Yay Düşərgəsində "Gənclər Yaşıl Dünya Naminə" adlı mövzusu Qərbi Azərbaycana həsr olunub. Tədbirdə "Qərbi Azərbaycana yaxından baxış" adlı sənədli film nümayiş olunub. Qərbi Azərbaycanın tarixi-memarlıq abidələrini, coğrafiyasını, təbii gözəlliklərini əks etdirən fotolar, Qərbi Azərbaycanın tarixi, dəyişdirilmiş toponimləri haqqında təqdimat göstərilib (5). Tədbirdə Qərbi Azərbaycanın tarixinin, mədəniyyətinin və həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılmasında Azərbaycan diasporunun rolundan bəhs olunub. Gənclərin bu işdə fəal olmasının vacibliyi vurğulanaraq, tövsiyələr səsləndirilib.

Qərbi Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında Beynəlxalq Diaspor Mərkəzinin fəaliyyətini də qeyd etmək yerinə düşər. Belə ki, Qərbi Azərbaycan icması ilə Beynəlxalq Diaspor Mərkəzi (BDM) arasında Əməkdaşlıq protokolu imzalanıb. Beynəlxalq Diaspor Mərkəzinin sədri bu məsələnin beynəlxalq səviyyəyə qaldırılmasını prioritet hesab edərək xarici ölkələrdə fəaliyyət göstərən Azərbaycan diasporunun imkanlarından daha səmərəli istifadə etməyin zəruriliyindən bəhs etmişdir. Tədbirdə ilk addım olaraq Çexiyada fəaliyyət göstərən Çex-Azərbaycan Elm və Mədəniyyət Mərkəzi ilə birlikdə Çexiyanın məşhur Masarik Universitetində "Qərbi Azərbaycan həqiqətləri və erməni yalanları" mövzusunda konfrans keçirilməsi təklifi qəbul edildi (12).

Fəaliyyətində dövlət başçısının tapşırıq və tövsiyələrini əsas tutan Qərbi Azərbaycan İcması beynəlxalq arenada fəaliyyətini davamlı olaraq genişləndirir. 2023-cü ilin yanvar ayında Birləşmiş

Millətlər Təşkilatının (BMT) katibliyi Qərbi Azərbaycan icmasının beynəlxalq ictimaiyyətə 12 yanvar tarixli müraciətini BMT Təhlükəsizlik Şurasının, Baş Assambleyasının və İqtisadi - Sosial Şurasının rəsmi sənədi kimi yayıb. Müraciət BMT-nin bütün rəsmi dillərində (ingilis, fransız, rus, çin, ərəb və ispan) təqdim edilib. Sözügedən müraciətin BMT rəsmi sənədi kimi yayılması ilə 190-dan çox ölkə məsələ barədə məlumatlandırılıb (13).

23-27 oktyabr 2024-cü il tarixlərində Qərbi Azərbaycan həqiqətləri ilə bağlı Belçika Krallığının paytaxtı, Avropanın Brüssel şəhərində "Qərbi Azərbaycana Qayıdış konsepsiyasının beynəlxalq hüquqi aspektləri və təminatı mövzusunda silsilə tədbirlər keçirilib. (4) Azərbaycanlıların və digər Türkdilli xalqların Əməkdaşlıq Mərkəzi İctimai Birliyi tərəfindən Avropanın siyasi mərkəzində həyata keçirilən layihə çərçivəsində Qərbi Azərbaycandan didərgin salınmış və deportasiya edilmiş soydaşlarımızın beynəlxalq hüquqa və konvensiyalara uyğun olaraq öz doğma yurdlarına ləyaqətlə və təhlükəsiz qayıdışının təmin edilməsi və bu prosesdə Ermənistanın öz öhdəliklərini yerinə yetirməsinin vacibliyi dünya ictimaiyyətinin diqqətinə çatdırılıb. Tədbirlərdə yerli təşkilat rəhbərləri və media qurumlarının təmsilçiləri, Niderland, Almaniya, Danimarka, Fransa, Belçika diaspor təşkilatlarından nümayəndələr iştirak etmişlər. Tədbirlərin keçirilməsində Belçikada fəaliyyət göstərən Azərbaycan-Belçika Dostluq Cəmiyyətinin, Belçika-Türk Media Birliyinin, Benilüks Azərbaycanlıları Konqresinin, Belçika-Gent Türk Ocaqları Mərkəzinin böyük dəstəyi olmuşdur.

Haaqada Niderland Krallığı parlamentinin Nümayəndələr Palatasının (Tweede kamer) "Nieuvs poort" media mərkəzində Azərbaycanlıların və digər Türkdilli xalqların Əməkdaşlıq Mərkəzi (ATXƏM) və Benilüks Azərbaycanlıları Konqresinin (BAK) birgə təşkilatçılığı, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə "Qərbi Azərbaycana Qayıdış Konsepsiyası və icmanın Avropadakı üzvləri" adlı beynəlxalq konfrans keirilib.

Konfransda Qərbi Azərbaycandan soydaşlarımızın zorla qovulmasını əks etdirən "Zəngəzur" sənədli filmi nümayiş etdirilib (14). Konfransda Qayıdışın sülh yolu və beynəlxalq hüquq əsasında reallaşdırılacağı bildirilərək, Ermənistandan didərgin salınmış azərbaycanlıların qayıtması üçün icmanın həyata keçirəcəyi fəaliyyətin məqsədləri, prinsipləri, hazırlıq və icra tədbirləri təqdim edilib.

Deyilən faktlara əsaslanaraq qeyd etmək istərdik ki, ölkəmizin hüdudlarından kənarda xarici ölkələrdə düşmənə qarşı apardığı informasiya müharibəsində diaspor təşkilatlarının fəaliyyəti, dəstəyi danılmazdır. Azərbaycan diaspor təşkilatlarının bir-birinin ardınca keçirilən tədbir və forumların kökündə Qərbi Azərbaycan həqiqətlərinin dünyada tanınması durur. Xaricdə fəaliyyət göstərən diaspor təşkilatlarının təbliğat sahəsində fəaliyyətinin daha da gücləndirilməsi, Qərbi Azərbaycan həqiqətləri ilə beynəlxalq aləmin məlumatlandırılması və bu faktın dünya dövlətlərinin parlamentlərinin, siyasi dairələrinin müzakirəsinə çıxarılması prioritet məsələdir. Prezident İlham Əliyev 2022 dekabrın 24-də Qərbi Azərbaycan icmasının görüşündə də dediyi kimi "Azərbaycan həqiqətləri dünya ictimaiyyətinə çatdırılmalıdır. Beynəlxalq hüquqşünaslar cəlb edilməlidir. Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir (8, 105). Bununla əlaqədar Prezident İlham Əliyev informasiya mübarizəsinin mühüm əhəmiyyətinə toxunaraq qeyd etmişdir ki, icmanın çox mötəbər bir rəqəmsal platforması olmalıdır, bir portalı olmalıdır. Orada həm tarixi həqiqətlər, həm tarixi abidələrimiz, ermənilər tərəfindən dağıdılan saraylar, məscidlər, şəhərlər, Azərbaycan tarixi irsinin silinməsi ilə bağlı olan faktlar öz əksini tapmalıdır. Dövlət başçısı tarixi həqiqətlərin beynəlxalq aləmə çatdırılmasında kitabların da nəşr olunmasının zəruriliyini qeyd etmişdir. "Əlbəttə ki, bizim tarixi həqiqətlərlə bağlı kitablarımız yenilənməlidir. Kitablar bütün dillərə tərcümə edilməlidir. Onun yanında həm də elektron daşıyıcısı olmalıdır" (8, 106). Bu məqsədlə xarici ölkələrdə istər ziyalı həmyerlilərimiz, istərsə də xarici ölkə ziyalıları tərəfindən həqiqətləri əks etdirən kitablar nəşr olunmuşdur.

Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və Alman Azərbaycanlıları Alyansının təşkilatçılığı ilə 2022-ci ildə Berlində nəşr olunan kitabda ermənilərin mənşəyinə, Cənubi Qafqazda məskunlaşmasına, son 200 ildə azərbaycanlıların başlarına gətirdikləri bəlalara və digər məsələlərə aydınlıq gətirilib. "Tarixi faktlar və həqiqətlər", "Ermənilərin XX əsrdə Azərbaycan əhalisinə qarşı törətdikləri qətliam və qırğınlar barədə", "Ermənilər haqqında söylənilən müxtəlif rəylər, fikirlər", "Tarix unutmayacaqdır" sərlövhəli məqalələr daxil edilib. Kitabda həmçinin ermənilərin 1905-1906, 1918-1920, 1948-1953, 1991-1994-cü illərdə Azərbaycanın müxtəlif bölgələrində və Qərbi Azərbaycanda

azərbaycanlılara qarşı xüsusi amansızlıqla törətdiyi qırğınlar, qətliamlar, soyqırımlar, deportasiyalar və terror aktlarını əks etdirən məlumatlar və fotomateriallar, o cümlədən ermənilərin bu dəhşətli cinayətlərlə bağlı yazdıqları fikirlər və çəkdikləri fotoşəkillər də yer alıb (1, 15).

Türkiyədə Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və Avrasiya Yazarlar Birliyinin təşkilatçılığı ilə azərbaycanlı jurnalist, siyasi elmlər üzrə fəlsəfə doktoru Sabir Şahtaxtının "Erməni uydurmalarından yaranan bəşəri cinayətlər: dünəni və bu günü" adlı elmi əsəri çap edilmişdir.

Qərbi Azərbaycan həqiqətlərindən və azərbaycanlıların indiki Ermənistan ərazisindəki ata-baba yurdlarına geri qayıdış hüququndan bəhs edən "Geri qayıdış hüququ: Bizim ədalət və barışıq çağırışımız" adlı məqalə Londonda yayımlanan "The europa tuday" nəşrində və 8 dildə fəaliyyət göstərən "Gulf observer" media resursunda dərc olunub. Məqalədə ötən əsr ərzində baş vermiş sonuncu 1987-1991-ci illər deportasiyasında 300 min azərbaycanlının öz evlərindən zorla çıxarıldığı bildirilir (1, 18).

Azərbaycanlıların deportasiya və soyqırım mövzusuna xarici ölkə alimlərinin münasibətini də qeyd etmək yerinə düşər. Bu baxımdan Beynəlxalq Diaspor Mərkəzinin dəvəti ilə Azərbaycanda səfərdə olan çexiyalı alim, Şərq ölkələri üzrə mütəxəssis, professor İvan Meznikin fikirləri çox önəmlidir. Beynəlxalq Diaspor Mərkəzinin (BDM) ofisində avropalı alimin iştirakı ilə "Azərbaycanlıların Ermənistandan deportasiyasına və soyqırımına" həsr olunmuş dəyirmi masa keçirilmişdir. Tədbirdə deportasiya və soyqırımı mövzusuna toxunan BDM-ın sədri, Avropa İnsan Hüquqları Məhkəməsinə soydaşlarımızın Ermənistan tərəfindən pozulmuş hüquqlarının müdafiəsi ilə bağlı edilən müraciətlərlə bağlı fikirlərini açıqlamışdır. Həmçinin, 1905-1918, 1948-53, 1988-ci illərdə erməni millətçiləri tərəfindən azərbaycanlıların öz ata-baba yurdlarından, indiki Ermənistan ərazisindən deportasiya olunması barədə tarixi faktlar dəyirmi masa iştirakçılarının diqqətinə çatdırılmışdır. Tədbirdə çıxış edən professor İvan Meznik terror, deportasiya, soyqırımın nə olduğunu yaxşı bildiyini qeyd edərək, Ermənistanın Azərbaycana təcavüzü və azərbaycanlıların öz doğma yurdlarından vəhşicəsinə qovulması haqqında geniş məlumat aldığını bildirmişdir. Dünyanın 14 nüfuzlu universitetində mühazirə oxuyan avropalı professor azərbaycanlıların deportasiyası və soyqırımına məruz qalması faktını, xüsusilə Xocalı faciəsini ölkəsinin ictimaiyyətinin və kütləvi informasiya vasitələrinin diqqətinə çatdıracağını bildirmişdir. Eyni zamanda, Çexiyanın Azərbaycandan uzaq olmasına baxmayaraq xalqlarımızın mənəvi cəhətdən bir-birinə yaxın olduğunu bildirən alim çex və Azərbaycan diasporlarının əlaqələrinin qurulmasına çalışacağını vurğulamışdır. İvan Meznik Çexiyada təhsil alan azərbaycanlı tələbələrlə əlaqələrin gücləndirilməsinin vacibliyini də qeyd etmişdir. Sonda Heydər Əliyev Fondu tərəfindən hazırlanmış və azərbaycanlıların deportasiyası və soyqırımını, habelə Qarabağ həqiqətlərini əks etdirən kitablar çexiyalı professora təqdim edilmişdir (3).

Nəticə. Yuxarıda sadalanan faktlara əsaslanaraq deyə bilərik ki, son iki əsrdə erməni millətçiləri tərəfindən azərbaycanlılara qarşı törədilən qətliamlar, soyqırımlar, deportasiyalar, terror aktlarını əks etdirən həqiqətləri dünya ictimaiyyətinə çatdırılmasında Azərbaycan diasporunun üzərinə böyük vəzifə düşür. Diaspor təşkilatları fəaliyyət göstərdikləri ölkələrdə sərgilər, təqdimatlar, beynəlxalq konfranslar keçirməli, sistematik olaraq ardıcıl şəkildə Qərbi Azərbaycan həqiqətlərini əks etdirən mənbələri, kitabları müxtəlif dillərdə dünya ictimaiyyətinə çatdırmalıdırlar. Bunun üçün Qərbi Azərbaycan həqiqətləri məsələsində diaspor təşkilatları fəaliyyət göstərdikləri ölkələrdə kütləvi informasiya vasitələri və telekanallarla əlaqələr qurmalıdırlar. Yuxarıda qeyd etdiyimiz kimi dünyanın müxtəlif yerlərində sərgilər təşkil etməlidirlər. O sərgilərdə Qərbi Azərbaycanla bağlı tarixi həqiqətləri əks etdirən nümunələr nümayiş olunmalıdır. Ümid edirik ki, xarici ölkələrdə fəaliyyət göstərən diaspor təşkilatlarımız bu vəzifələrin öhdəsindən layiqincə gələcək, necə ki, 44 günlük Vətən müharibəsində Azərbaycanın ədalətli mövqeyinin beynəlxalq aləmə çatdırılmasında müxtəlif tədbirlər həyata keçirmişlər.

ƏDƏBİYYAT

1. Azərbaycan Diasporla İş üzrə Dövlət Komitəsinin 2022-ci ilin yekunlarına dair hesabat, 182 s.
2. Arzumanlı V, Mustafa N. Tarixin qara səhifələri. Deportasiya. Soyqırım, Qaçqınlıq. Bakı: Qartal, - 1998, - 280 s.
3. Çexiyalı alimin iştirakı ilə keçirilən "Dəyirmi masa" https//azertaq.az. istifadə tarixi 05.04.2025
4. Diaspor https//demokrat.az. istifadə tarixi 05.04.2025

5. Diaspor Gənclərinin V Yay Düşərgəsində Qərbi azərbaycanlılarla görüş Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi. https//diaspor.qov.az. istifadə tarixi. 01.04.2025
6. Əsgərova Z. Azərbaycan xalqının soyqırımı həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında Türkiyədəki Azərbaycan diasporunun rolu. AMEA Tarix İnstitutunun Elmi Əsərləri 56, 57, 58/2015, s.219-224
7. Əkbərov Ə. Qərbi Azərbaycan və deportasiya edilmiş azərbaycanlılar (XX əsr). Qərbi Azərbaycana qayıdışa gedən yol" konqres, 23-24 noyabr 2023, Naxçıvan şəhəri, s.96
8. Qərbi Azərbaycan: tarixi yaddaşımız. Bakı, 2025. – 155 s.
9. Qurbanlı Ə.S. Azərbaycanlıların Ermənistan SSR-dən deportasiyası tarixindən (1947-1953-cü illər). Bakı; 2018 – 168 s.
10. Qərbi Azərbaycan İcması. - https// qərbiazerbaycan.com. istifadə tarixi: 01.04.2025
11. Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşdə İlham Əliyevin nitqi. - https// president.az. istifadə tarixi: 01.04.2025
12. Qərbi Azərbaycan uğrunda mübarizəyə daha bir təşkilat qoşulub. - https// missiya.az. istifadə tarixi: 05.04.2025
13. Qərbi Azərbaycan icmasının tarixində. - https//www yeniazerbaycan.com. istifadə tarixi: 05.04.2025
14. Niderland parlamentində Qərbi Azərbaycana qayıdışla beynəlxalq konfrans - https//demokrat.az. istifadə tarixi 07.04.2025
15. 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi deportasiyası haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı - https// e-qanun.az istifadə tarixi 07.04.2025
16. Nazim Mustafa. Azərbaycan xalqına qarşı böyük ədalətsizlik – 1948-1953-cü illər deportasiyası. Xalq qəzeti 2022-ci il, 23 dekabr.
17. Sabiroğlu F. İrəvan xanlığının qalaları və aqibəti. Füyuzat №5 (55), 2010 (1906-1907).

МИНАРА АГАМАЛИЕВА
Научный сотрудник отдела «История международных отношений Азербайджана» Института истории и этнологии имени А.А. Бакиханова НАНА

РЕАЛИИ О ЗАПАДНЫХ АЗЕРБАЙДЖАНЦАХ В ДЕЯТЕЛЬНОСТИ АЗЕРБАЙДЖАНСКОЙ ДИАСПОРЫ

Поскольку Азербайджанская Республика является неотъемлемой частью международного сообщества, фактор диаспоры имеет большое значение для развития нашей государственности и роста влияния Азербайджана в мире, для изучения реалий Западного Азербайджана, доведения их до мировой общественности и разоблачения армянских фальсификаций.

В статье рассматривается деятельность азербайджанской диаспоры по доведению до международного сообщества истории, культуры и реалий Западного Азербайджана.

Ключевые слова: Западный Азербайджан, депортация, геноцид, азербайджанская диаспора.

MINARA AGHAMALIYEVA
Researcher at the Department of "History of International Relations of Azerbaijan" of the Institute of History and Ethnology named after A.A. Bakikhanov of ANAS

THE REALITY OF WESTERN AZERBAIJANIS IN THE ACTIVITIES OF THE AZERBAIJANI DIASPORA

Since the Republic of Azerbaijan is an integral part of the international community, the diaspora factor is of great importance for the development of our statehood and the growth of Azerbai-

jan's influence in the world, for studying the realities of Western Azerbaijan, bringing them to the attention of the world community, and exposing Armenian falsifications.

This article examines the activities of the Azerbaijani diaspora in bringing the history, culture, and realities of Western Azerbaijan to the attention of the international community.

Keywords: Western Azerbaijan, deportation, genocide, Azerbaijani diaspora.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 13 noyabr 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 30 noyabr 2025-ci il.
Rəyçilər: t.ü.f.d. Xatirə Ağayeva, t.e.d. Qabil Əliyev.